# Ulu öndərə sonsuz el məhəbbəti

## O, əvəzsiz lider idi

Doğma Azərbaycanımızın tarixində misilsiz xidmətləri olmuş dahi öndər Heydər Əliyev 15 ildir ki, cismən bizimlə deyil. Bu dahi insan hər bir azərbaycanlının, hər bir Azərbaycan sevərin qəlbinə köçüb. İllər əsrlər keçsə də Heydər Əliyev sevgisi qəlbimizdən silinməyəcəkdir.

Heydər Əliyev on dörd il sovetlər dönəmində Azərbaycana rəhbərlik edib. Beş il dünyanın ən nəhəng dövlətlərindən olan SSRİ hökumətində ikinci şəxs olub. On ildən artıq başında durduğu müstəqil Azərbaycanın yaradılması və təşəkkül tapması da onun adı ilə bağlıdır.

İstedad, yüksək bacarıq və möhkəm iradə Heydər Əliyev şəxsiyyətinin adı keyfiyyətlərindəndir. Onun simasında böyük siyasətçinin peyğəmbər uzaqgörənliyi və sərkərdə şücaəti cəmləşirdi.

Heydər Əliyevin xalqımız, Vətənimiz üçün ən böyük xidməti həm də ondan ibarətdir ki, o, Azərbaycan sözünü, Azərbaycançılıq ideyasını yüksəklərə qaldırdı.

Ulu öndər gərgin əmək sərf edərək, böyük çətinliklərə sinə gərərək Azərbaycanı bütün sahələr üzrə inkişaf yoluna yönəlvuşdu. Qədirbilən xalqımız ulu öndərin xatirəsinə böyük ehtiram bəsləyir. Onun ideyalarını yaşadır və inkişaf etdirir.

Dahi rəhbərin Azərbaycanı dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxarmaq üçün başlatdığı böyük quruculuq işləri, ideyaları onun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən Heydər Əliyev ideyalarına böyük sədaqət göstərən xalqımızın yardımı ilə uğurla həyata keçirilir.

Qəbrin nurla dolsun ümumilli lider! Bütün Azərbaycan xalqı kimi Qəbələ ağsaqqalları da bu anım günlərində bir daha müqəddəs ruhun qarşısında baş əyir, sonsuz ehtiramlarını nümayiş etdirirlər.

**Nazım MUSTAFAYEV,**
**Qəbələ Rayon Ağsaqqallar Şurasının sədri.**

## Heydər baba

Sən həmişə bizimləsən,
Heydər baba, Heydər baba.
Fəxr eylədin elinlə sən,
Heydər baba, Heydər baba.

Qızılla yazıldı adın,
Gül-çiçək açdı muradın,
Yerini tutdu övladın,
Heydər baba, Heydər baba.

Xalqa olub məhəbbətin,
Yenilməzdir əzəmətin,
Təməlin qoydun dövlətin,
Heydər baba, Heydər baba.

Azərbaycan deyə-deyə,
Millət deyib-gülsün deyə,
Yol göstərdin gələcəyə,
Heydər baba, Heydər baba.

**Hüseyn XASMƏMMƏDOV.**

## Hər vaxt bizimləsən

Daim xalqımızın keşiyin çəkdin,
Azadlıq toxumun ölkəmdə əkdin.
Səni unutmayır bu el, bu oba,
Hər vaxt bizimləsən, ay Heydər baba!
Sönməz bir işıqsan, ucaldı büstün,
Bütün millətlərdən olmuşuq üstün.
Yoxdur bərabərin bütün dünyada,
Hər vaxt bizimləsən, ay Heydər baba!
Yurdumda, hər yerdə izin görünür,
Adını eşidən hər kəs sevinir.
Şanın, şöhrətin var eldə, obada,
Hər vaxt bizimləsən, ay Heydər baba!
Yenilməz, çox mətin bir ordu qurdun,
Düşmənin köksünə zərbələr vurdun.
Xalqım hörmət edir müqəddəs ada,
Hər vaxt bizimləsən, ay Heydər baba!
Səsimi dünyada edəcəyəm car,
Qəlbimdə əbədi sənin yerin var.
Gəldin Qəbələyə, bu qədim yurda,
Hər vaxt bizimləsən, ay Heydər baba!

**Eldar DAŞDIYEV.**

## Ulu rəhbər

*(«Ulu Heydər dünyası» silsiləsindən)*

Onun səsi haqq səsidir,
O, dahilər dahisidir,
Yeni həyat banisidir,
Heydər baba, Ulu rəhbər.

O, zirvədir, hər əl çatmaz,
Şimşək olar, hədər çaxmaz,
El oğludur cəsur, qorxmaz,
Heydər baba, Ulu rəhbər.

Bu dünyaya nurdu, getdi,
Şər əlləri burdu getdi,
Azad ölkə qurdu getdi,
Heydər baba, Ulu rəhbər.

Sevdi xalqı, eli, yurdu,
Çətin gündə öndə durdu,
Ürəklərdə heykəl qurdu,
Heydər baba, Ulu rəhbər.

İllər gəlib ötəcəkdir,
Vətən sevir, sevəcəkdir,
«Daim sağdır», - deyəcəkdir,
Heydər baba, Ulu rəhbər.

**Aşot UDİNOĞLU.**

## Xatirə turniri

Qəbələ Rayon Gənclər və İdman İdarəsi ümummilli lider Heydər Əliyevin anım gününə



həsr edilmiş tədbirlər planına əsasən 11 dekabr 2018-ci il tarixdə Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat məktəbində stolüstü tennis üzrə yeniyetmələr arasında xatirə turniri keçirmişdir.

Turnir iştirakçıları ilk öncə ulu öndər Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Daha sonra tədbirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru Ədalət Əliyev çıxış edərək dünya şöhrətli şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının qurulması və möhkəmlənməsindəki əvəzolunmaz xidmətlərindən, idman sahəsində görülmüş işlərdən və ölkəmizin qazandığı nailiyyətlərdən danışmışlar. Natiqlər çıxışlarında respublikada olduğu kimi Qəbələ rayonunda da idmanın maddi-texniki bazasının möhkəmləndirilməsindən, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən idmançılara göstərilən diqqət və qayğıdan danışaraq yarış iştirakçılarına uğurlar arzulamışlar.

Xatirə turnirində 20-dək idmançı gərgin oyun nümayiş etdirmişdir. Yarışın nəticəsinə əsasən Amil Ağakərimov I yeri, Fəqan Ağakərimov II yeri və Rais Abdullayev III yeri tutmuşdur.

Qaliblərə rayon gənclər və idman idarəsinin diplomları və xatirə hədiyyələri təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

## Azərbaycan adı onun üçün müqəddəs idi

Ulu öndər Heydər Əliyevin vətənimiz Azərbaycana göstərdiyi xidmətləri saymaqla bitməz. O, əsil Azərbaycan vətənpərvəri idi. Azərbaycan adını, azərbaycanlı adını yüksəklərə qaldırmağı Heydər Əliyev özünün ən müqəddəs vəzifələrindən sayırdı. Mən onun azərbaycanlı adını ucaltmaq üçün gördüyü işlərdən bir neçəsini xatırlamaq istəyirəm.

Xalqımızın igid oğlu Mehdi Hüseynzadə ikinci dünya müharibəsi dövründə Yuqoslaviyada düşmən arasında misilsiz şücaətlər göstərmiş, faşizmə qarşı mübarizənin ön cəbhələrində olmuşdur. Ancaq bədhaxlarımızın əməlləri sayəsində Mehdi Hüseynzadəyə vətənə xəyanət damğası vurulmuşdu. Heydər Əliyev SSRİ təhlükəsizlik orqanlarında işləyərkən igid vətən oğlunun adının təmizə çıxarılması üçün bütün çətinliklərə sinə gərmiş, onun üzərindən vətənə xəyanət damğasını götürməklə kifayətlənməmiş, 1965-ci ildə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhraman kimi o dövrün ən yüksək fəxri adının verilməsinə nail olmuşdur. Heydər Əliyev general Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəm adının verilməsinə də böyük qüvvə sərf etmişdir.

Dahi şairimiz Hüseyn Cavidin qəbrinin uzaq Sibirdən Azərbaycana gətirilməsi də bir başa Heydər Əliyevin xidmətidir.

Bu cür nümunələr yüzlərlədir.

**Sədyar SƏFƏRƏLİYEV,**
**təqaüdçü.**

## Peşə bayramı qeyd olunub

Dekabrın 6-da rabitə və informasiya texnologiyaları işçilərinin peşə bayramı günü "Azərpoçt" MMC Qəbələ Filialının və Qəbələ Telekomunikasiya Qovşağı kollektivləri tərəfindən qeyd olunub.

Saat 10-da «Azərpoçt» MMC Qəbələ Filialının və rayon rabitə qovşağının işçiləri ulu öndər Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzindəki abidəsi önünə gül-çiçək dəstələri düzərək ehtiramlarını nümayiş etdiriblər.

Tədbir «Azərpoçt» MMC Qəbələ Filialının akt zalında davam etmişdir. Filialın rəisi Rauf Kərimov bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 02 dekabr 2006-cı il tarixli Sərəncamına əsasən hər il dekabrın 6-sı rabitə və informasiya texnologiyaları işçilərinin peşə bayramı kimi qeyd olunur. Bu il bu bayram xüsusilə əlamətdar bir vaxta–Azərbaycan Xalq Cümhuriyyətinin və onun əsas strukturlarının 100 illiyinin qeyd olunduğu dövrə təsadüf edir.

Natiq qeyd etmişdir ki, Qəbələ poçtunun və telekumunikasiya qovşağının kollektivləri bu ilin 11 aylıq xidmət proqnozlarını artıqlaması ilə yerinə yetiriblər.

Qəbələ Telekomunikasiya Qovşağının rəisi Etibar İsayev peşə bayramı münasibətilə kollektivi təbrik edib və bildirib ki, möhtərəm prezidentimizin 6 dekabr tarixini rabitə işçiləri günü kimi təsdiqləməsi təsadüfi deyil. Belə ki, 1981-ci ildə həmin gün Bakıda " Nobel qardaşları" cəmiyyəti tərəfindən ilk telefon xətti çəkilib. Bu onu göstərir ki, Azərbaycan rabitəsinin tarixi yetərincə zəngindir.

Etibar İsayev və digər çıxış edənlər ölkəmizdə rabitənin və informasiya texnologiyalarının inkişafına, bu sahədə çalışanların həyat səviyyəsinin yüksəldilməsinə göstərdiyi qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər.

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**